# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Təlatümlü dünyada Azərbaycan sabitlik adasıdır**



6

# Azərbaycan - dünyanın idman ölkəsi!

Prezident İlham Əliyev: "İdmanın kütləviliyini təmin edərək biz xalqımızın sağlamlığını qoruyacağıq"



2


SƏS

№ 020 (7430)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

11 mart 2026-cı il.
Qiymәti 1 manat


# "Nüvə Klubu" və artan təhdidlər



5

**10 min müəllif Sİ-ə qarşı: əməyimizi oğurlayır!**



7

**"Bayramqabağı qiymət artımı müvəqqətidir"**



4

**Müstəqillik tariximizdə Mart hadisələri**



7

**Televiziyalar dilimizi niyə korlayır?**



3

**Müharibəni Tramp başladı, milyonları Putin qazanır...**



6

# Azərbaycan - dünyanın idman ölkəsi!

## Prezident İlham Əliyev: "İdmanın kütləviliyini təmin edərək biz xalqımızın sağlamlığını qoruyacağıq"



Azərbaycanın beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara ev sahibliyi etməsi ölkəmizin elmə, təhsilə, mədəniyyətə, idmana və digər sahələrə olan diqqəti ilə yanaşı, bu və ya digər sahələrdə qazanmış olduğu uğur və nailiyyətlərin təsdiqidir. Paytaxtımızda NATO Parlament Assambleyasının seminarı, Bakı Beynəlxalq Humanitar, Gənclər siyasəti üzrə I Qlobal forumu, Caz Festivalı, "Bakı Elm Festivalı-2014", BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu kimi mühüm əhəmiyyət kəsb edən müxtəlif məzmunlu tədbirləri təşkil olunmasında Azərbaycanın qazandığı mövqeyi, ölkəmizin beynəlxalq çəkisi, yüksək imici səbəb olmuşdur. Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malik olduğundan təşkilatçılıq, təhlükəsizlik, iqtisadi imkanların mövcudluğu da həlledici rola malikdir ki, ölkəmizdə bütün bu və ya digər tədbirlərin yüksək səviyyədə təşkili öz həllini tapır. Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən Dünya və Avropa çempionatları bir daha sübut etdi ki, həqiqətən də, Azərbaycanda idman uğurla və sürətlə inkişaf edir. Prezident İlham Əliyevin dediyi kimi: "İdman Azərbaycanda dövlət siyasətidir. Dövlət bu istiqamətdə öz siyasətini apararkən idmanın hərtərəfli inkişafına nail ola bilmişdir".

İdmana olan diqqətin nəticəsidir ki, hər il martın 5-i Azərbaycanda Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd olunur. Prezident İlham Əliyevin 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən hər ilin bu günü Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd edilir.

Ölkəmizdə idmanın inkişafı ildən-ilə daha geniş vüsət alır. Azərbaycan indi dünyada güclü idman ölkəsi kimi tanınır. Ölkəmizdə Bədən Tərbiyəsi və İdman Gününün martın 5-də qeyd olunması isə təsadüfi deyil. Məhz 1995-ci il martın 5-də Ulu Öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub.

### DÜNYANIN "İDMAN PAYTAXTI"

Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Bakı şəhərini 2026-cı il üçün dünyanın "İdman Paytaxtı" seçməsi təsadüfü hal deyil. Azərbaycanda əhalinin sağlamlığının möhkəmləndirilməsi, yüksək standartlara uyğun mövcud idman infrastrukturu və idmanın təbliği üçün görülən nümunəvi fəaliyyət yüksək qiymətləndirilib. İdman sahəsinə ayrılan diqqət və göstərilən qayğı gənclərin bu sahəyə olan marağını artırıb. Kütləvi olaraq bu sahəyə axın var. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğulayıb ki, idmanın kütləviliyini təmin edərək biz xalqımızın sağlamlığını qoruyacağıq və bizim gənclərimiz, gənc nəsil sağlam olacaq - həm fiziki cəhətdən, həm mənəvi baxımdan: "Çünki fiziki cəhətdən güclü insan adətən öz gücündən yalnız çətin məqamda istifadə etməlidir. Güclü insanda özünə əminlik var. Fiziki cəhətdən güclü insan heç vaxt ondan zəif insana qarşı zor tətbiq etməməlidir. Ancaq özünü, öz yaxınlarını, öz torpağını qorumalıdır. Ona görə idmanın inkişafı, sadəcə olaraq, idman nəticələri əldə etmək üçün vasitə deyil, idmanın inkişafı xalqın sağlamlığıdır və Azərbaycan xalqı sağlam olmalıdır".

### İDMANÇILARIMIZ MÜZƏFFƏR ÖLKƏNİ TƏMSİL EDİR

Müasir dövrümüzdə Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu. "Biz ləyaqətli xalqı və böyük hörmətə layiq olan ölkəni təmsil edirik" - deyən Prezident qeyd edib ki, siz idmançılar bundan sonra, sizdən sonra gələn nəsillər həmişə müzəffər ölkəni təmsil edəcəksiniz: "Bizim Qələbəmiz əbədidir, biz Qarabağı düşməndən azad edən xalqıq və o torpaqlarda həyat yaradan, həyat quran xalqıq".

### "MÜKƏMMƏL ÇIXIŞ EDƏN İDMANÇIMIZ YENİLMƏZ İRADƏ, ƏZMKARLIQ VƏ MƏHARƏT NÜMAYİŞ ETDİRƏRƏK PARLAQ VƏ İNAMLI QƏLƏBƏ QAZANDI!"

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindən kənarda qalmayıb. İdmana ayrılan diqqətin nümunəsidir ki, mötəbər idman yarışları, tədbirlər ölkəmizdə davamlı olaraq təşkil olunub. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımız mötəbər yarışların qalibi olub.

### MÜASİR OLİMPİYA İDMAN KOMPLEKSLƏRİ

Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir.

Bakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Son illərdə dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilən Azərbaycanda 300-dən çox beynəlxalq yarış keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Bu yarışların Azərbaycanda keçirilməsi bir daha inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. Dünyaya əminliklə bəyan etdiyi gücünü, qüdrətini və təhlükəsizlik tədbirlərinə cavabdehliyini göstərib. Yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı və s. uğurla keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi, inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. İlk Avropa Oyunlarının da Bakıda keçirilməsi böyük nailiyyət kimi idman tariximizə həkk olundu. "Bakı - 2015" Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunması və tarixi qələbənin qazanılması gələcəkdə ölkəmizdə daha möhtəşəm idman tədbirlərinin keçirilməsi üçün yeni perspektivlər açdı. "Bakı-2015" ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri kimi tarixləşdi. İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançılarının qələbələri də yaddaqalan oldu. Bu idman, dostluq və qardaşlıq bayramına çevrilən oyunlar bir daha Azərbaycanın gücünü göstərdi. Azərbaycan 2015-ci ildə Avropa Oyunlarında ikinci, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə layiq görüldü. "Avropa Liqasının 2019-cu ildəki final matçı və UEFA 2020-ci ilin matçları 2021-ci ildə Bakıda keçirildi. Bütün bu uğurlar onu göstərir ki, gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsini dövlətimiz daim diqqət mərkəzində saxlayır. Gəncə şəhəri MDB Oyunlarının mərkəzi oldu. Gəncədə yeni stadion inşa edildi.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işləri böyük sürətlə həyata keçirilir. Artıq həmin ərazilərdə ilk beynəlxalq turnirlər təşkil olunub. Milli Paralimpiya Komitəsi də Qarabağda Paralimpiya hərəkatının inkişaf etdirilməsini qarşıya məqsəd qoyub. Əsas hədəf bütün Azərbaycanın Paralimpiya hərəkatı ilə əhatə etməkdir. Bütün azad edilmiş şəhərlərin Baş planları təsdiq edilib. Bütün bərpa-quruculuq işləri Baş planlar əsasında aparılır. Burada idman obyektlərinin yaradılması nəzərdə tutulur. "Suqovuşan və Köndələnçay su anbarlarında artıq beynəlxalq avarçəkmə yarışları keçirilir. Şuşa şəhərində bir neçə idman yarışı keçirilmişdir... Xankəndi stadionunda biz hamımız tarixi futbol yarışını izləmişik", - deyə Prezident bildirib. Məhz bu diqqət və qayğı Azərbaycanın qarşıdakı illərdə idmanda daha böyük uğurlara imza atacağını deməyə əsas verir. Bu gün ölkəmizdə cəmiyyətin inkişaf edən bütün sahələri kimi idman da öz çiçəklənmə dövrünü yaşayır. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması və olimpiya idman komplekslərinin inşa edilərək xalqımızın ixtiyarına verilməsi bunun təzahürüdür.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Peşəkar milli teatrımız




XIX əsrin 70-ci illəri Azərbaycanda milli teatrın tarixində böyük hadisə çevrildi. Düz 153 il əvvəl 1873-cü il martın 10-da Bakı realnı məktəbinin teatr həvəskarları truppası tərəfindən M. F. Axundzadənin "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyası tamaşaya qoyuldu. Bu tamaşa ilə Azərbaycanda milli teatrın əsası qoyuldu və həmin zamandan başlayaraq saysız tamaşalar teatr səhnəsinə yol açdı. H.Zərdabinin təşəbbüsü, N.Vəzirov və Ə.Adıgözəlovun yaxından iştirakı ilə Realni məktəbin şagirdləri tərəfindən göstərilən bu tamaşa milli teatrın yaranması üçün qüdrətli təkan idi. Qabaqcıl Azərbaycan ziyalıları, sonralar Qori seminariyasını bitirən müəllimlər Şuşa, Naxçıvan və başqa şəhərlərdə teatr tamaşaları düzəldir, eyni zamanda, bu tamaşalarda "aktyor" kimi çıxış edirdilər. Şuşada qabaqcıl müəllim və ziyalı qüvvələri Y.Məlik-Haqnəzərovun rəhbərliyi ilə yay tətilləri zamanı klubda və Xandəmirovun teatrında müntəzəm surətdə tamaşalar təşkil edir, M.F.Axundzadənini komediyalarını oynayırdılar.

M.F.Axundzadənin əsərlərindən ibarət tamaşalar verildiyi bəllidir. 1876-cı ildən onun komediyaları Tiflisdə də oynanılmışdır. XIX əsrin 70-80-cı illərində Azərbaycanın müxtəlif şəhərlərində fəaliyyət göstərən teatr həvəskarları tədricən Bakıdakı teatr xadimləri ətrafında formalaşmağa başlayırlar. Ona görə də Bakının teatr həyatı 80-ci illərin axırlarına doğru yenidən canlanır və burada əsl mənada müəyyən bir teatr kollektivinin yaranmasına səbəb olur. 1896-cı ildə H.Zərdabi Bakıda "Birinci müsəlman dram truppası" adlı ilk professional teatr kollektivini təşkil etdi. 1897-ci ildə Bakıda ilk dəfə "Artistlər ittifaqı" yaradıldı. İnqilaba qədərki Azərbaycan teatrının repertuarı milli dramaturqların, həmçinin, rus və Qərbi Avropa klassiklərinin əsərləri ilə zənginləşdirilirdi. Mənbələrdə qeyd olunduğu kimi, 1910-cu ildə "Səfa" adlı yeni mədəni-maarif cəmiyyəti və onun yanında teatr şöbəsi yaradıldı. 1908-ci il yanvarın 12-də Bakıda ilk milli opera - Ü.Hacıbəyovun "Leyli və Məcnun" əsərinin tamaşası ilə Azərbaycan professional musiqili teatrının əsası qoyuldu. Musiqili teatrın yarandığı ilk illərdə onun repertuarını Ü.Hacıbəylinin 1908-1913-cü illərdə yaratdığı "Leyli və Məcnun", "Şeyx Sənan", "Rüstəm və Zöhrab", "Şah Abbas və Xurşid Banu", "Əsli və Kərəm" operaları, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları təşkil edirdi. Ancaq özünün ayrıca repertuarı olmasına baxmayaraq, musiqili teatrda peşəkar ifaçılara böyük ehtiyac duyulurdu.

## BİRLƏŞMİŞ DÖVLƏT TEATRI YARADILDI

1916-cı ildə C.Məmmədquluzadənin "Ölülər" komediyasının tamaşaya qoyulması Azərbaycan teatrının ideyaca yetkinləşdiyini göstərən bir olay idi. Bu tamaşa mövhumat və cəhalət, yalan və zülm dünyasına qarşı bir ittihamnamə kimi səslənərək böyük uğur qazandı. 1917-ci ildə Bakıda "Müsəlmən artistləri ittifaqı" yaradıldı. A.M.Şərifzadə ittifaqa sədr seçildi. İttifaq bütün teatr dəstələrini öz ətrafına toplayaraq, yoldaşlıq münasibətləri əsasında tamaşalar verirdi. 1920-ci ildə Azərbaycan Demokratik Cumhuriyyəti xaincəsinə dağıdıldıqdan sonra Azərbaycan XKS-nin 1920 il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı yaradıldı. Burada Bakıda fəaliyyət göstərən bütün truppalar və həvəskar aktyorlar birləşdi. 1918-ci ildə yanmış keçmiş Tağıyev teatrının binası respublika hökumətinin qərarı ilə bərpa olundu. 1922-ci ildə dram truppası Birləşmiş Dövlət Teatrından ayrılaraq, müstəqil teatra çevrildi. Həmin il "Hacı Qara" komediyasının yeni quruluşdakı tamaşası ilə Azərbaycan Dövlət Dram Teatrının təntənəli açılışı oldu.

153 illik tarixi yol keçmiş Azərbaycan teatrında Azərbaycan və qeyri-milli dramturqların klassik və müasir mövzuda bir sıra maraqlı əsərləri tamaşaya qoyuldu. "Hökmdar və qızı", "Hara gedir bu dünya?", "Özümüzü kəsən qılınc", "Dar ağacı", "Məhəbbət və azadlıq adası", "Dişi canavar", "Ah qadınlar, qadınlar", "Qısqanc ürəklər", "Min illərin işığı", "Hərdən mənə mələk de deyirlər" və s. tamaşalar oynanıldı. Bu gün Azərbaycan peşəkar teatrı sənət yolunun yeni bir mərhələsini yaşayır. Belə ki, Ulu Öndər Heydər Əliyev ənənələrini layiqli davam etdirən Prezident İlham Əliyevin sərəncamı ilə teatr binaları təmir və bərpa etdirilib, onların dünya teatr səhnəsinə uyğun olaraq fəaliyyət göstərmələrinə hər cür şərait yaradılıb. Hər zaman sənət adamlarına diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamı ilə ölkəmizdə "Milli Teatr Günü" təsis edilib. Sərəncama əsasən, milli mədəniyyətin inkişafında və ölkənin mədəni həyatında milli teatrın əhəmiyyəti və rolu nəzərə alınaraq hər il martın 10-u Azərbaycan Respublikasında "Milli Teatr Günü" kimi qeyd edilməsi qərara alınıb.

Bu gün Azərbaycan teatrı böyük ruh yüksəkliyi ilə Milli Teatr Gününü qeyd edir. Xüsusi olaraq, qeyd edək ki, teatrın belə bir səviyyəyə yüksəlməsində peşəkar aktyorların da rolu müstəsnadır. Azərbaycan teatrı dedikdə, ilk növbədə, bu ağır yükü çiynində daşıyan aktyorların siması göz önündə canlanır. Bu qisimdə olan sənətkarlardan biri də Nəsibə Zeynalovadır. Elə bu günün bayram kimi qeyd olunması da elə onun ölüm tarixi ilə bağlıdır. Azərbaycan teatr sahəsində çalışan sənətkarlar bayramı qeyd etməklə yanaşı, Azərbaycan teatr səhnəsinin böyük ustad sənətkarı olan Nəsibə xanımın anım gününü də qeyd edirlər.

## YARADICILIĞI GÜLÜŞ VƏ MUSİQİDƏN YOĞRULMUŞ SƏNƏTKAR

Azərbaycan teatrsevənləri arasında "Qaynana" kimi sevilən, Milli Musiqili Komediya Teatrının inkişafında müstəsna rol oynayan, qırx ildən çox işlədiyi sənət ocağının repertuar ağırlığını ləyaqətlə çiyinlərində daşıyan Nəsibə xanım Azərbaycan realist aktyor məktəbinin ən layiqli nümayəndələrindən biri kimi formalaşıb və şöhrətlənmişdir. Yaradıcılığının mayası gülüş və musiqi ilə yoğrulmuş Nəsibə xanımın keçdiyi həyat və yaradıcılıq yoluna nəzər salsaq görərik ki, o, orta məktəbdən rəqqasəlik etmiş, milli oyun havalarının mürəkkəb və lirik incəliklərinə yiyələnmişdi. Gənc aktrisa yenicə yaranan Azərbaycan Dövlət Musiqili Komediya Teatrının truppasına birinci dərəcəli aktrisa kimi fəaliyyətə başlamışdır. Həmin il Bakı Teatr Məktəbinə daxil olaraq aktyorluq təhsili alıb. Aleksandr Tuqanovdan, Məhərrəm Haşımovdan, Ağasadıq Gəraybəylidən dərs alan tələbə Nəsibə Zeynalova texnikumda oxuyarkən Katarina, Elvira, Yelizaveta kimi rolları oynayıb. Ömrünü Musiqili Komediya Teatrı ilə bağlayan aktrisa sənət ocağının müəyyən fasilələrlə truppa, filarmoniyanın nəzdində dəstə-ansambl şəklində fəaliyyət göstərdiyi illərdə də kollektivdən ayrılmayıb. Aktrisa milli klassik operettalarımızın tamaşalarında Gülpəri, Cahan xala, Sənəm, Mələk xanım və Kələk xanım kimi xarakterik səhnə obrazlarında çıxış edib. Aktrisanın zəngin rollar qalereyasında tərcümə əsərlərində ifa etdiyi Kabato və Barbale, Ziraldina, Zivər xanım, Alma, Qesiya rollarının xüsusi yeri var. Nəsibə Zeynalovanın yaradıcılığının ən parlaq dövrü isə çağdaş bəstəkarların müasir mövzusu musiqili komediya əsərlərinin tamaşalarındakı bir-birindən fərqlənən komik personajların ifası ilə bağlıdır. Bu baxımdan aktrisanın Xanpəri, Nargilə, Şərəf və Nisə, Məsmə, Məhərrəm Əlizadə və Ağası Məşədibəyov, Züleyxa, Tükəz, Tərlan, Zemfira, Şölə xanım, Xeyransa, Matan, Güləndam, Qəmər və başqa rollarının əvəzsiz ifaçısı sayılır. Xüsusilə, Cənnət xala, Nargilə, Züleyxa rolları zəngin ifadə vasitələri, yumorun milliliyi, təbii realllığı ilə səhnəmizin nadir inciləri sırasında durur.

*Nəzakət ƏLƏDDİNQIZI*


Elçin Bayramlı

# Televiziyalar dilimizi niyə korlayır?

***Televiziya bütün dövrlərdə ən güclü təbliğat vasitəsi hesab olunub. Ədəbi dilin formalaşmasında TV-lərin rolu böyükdür. Bütün ölkələrdə olduğu kimi, Azərbaycan ədəbi dilinin formalaşmasında, xalq tərəfindən də televiziyanın böyük rolu olub. Lakin bu gün AzTV və Mədəniyyət kanalı istisna olmaqla televiziyaların demək olar ki, hamısında dil problemi mövcuddur. Aparıcılar ədəbi dili kənara qoyub, jarqonlar, əcnəbi sözlərlə, ara kəlmələri ilə danışırlar. İTV-də belə qüsurlara az hallarda rast gəlinir, lakin özəl kanallarda belə halların sayı-hesabı yoxdur.***

Üzeyir Hacıbəyov "Yeni üsuli-təbii haqqında bir neçə söz" adlı məqaləsində (Tərəqqi qezetinin 1909-cu il mart tarixli nömrəsində) yazırdı: "Biz müəllimlər öz dilimizi bilmirik və bilmədiyimiz üçün bədbəxt dilimizi xarab edirik. Yüzlərlə müəllim ana dilinin qaydalarından heç nə bilmir". Məqalənin yazılmasından 1 əsrdən çox keçsə də, orada qeyd olunan fikirlər öz aktuallığını bu gün də saxlamaqdadır. Dilimizi ən çox internet mediası korlasa da, bunu televiziyalara da aid etmək olar. Müasir dövrdə televiziya və radio kanallarının dili olduqca çox müzakirə edilən məsələdir. Bu həmin sahədə çalışan əməkdaşların bəzilərinin konkret olaraq savadsızlığından, digər qisminin isə xarici dillərə meylindən irəli gəlir.

Bəzən kanallarda bundan sui-istifadə halları olur. Onlar bəzən verilişlərə dəvət etdikləri qonaqlarla xarici dilə aid sözlərlə danışırlar. Onların cümləsinin bir hissəsi türkcə, bir hissəsi rusca, bir hissəsi ingiliscə qurulur.

Sözlərin "qol-qabırğasını" sındıra-sındıra, hər sözə bir şəkilçi artırmaq və ya azaltmaqla danışmağı kimlərsə dəb salır. Qeyri-səlis tələffüz və diksiya problemi olan aparıcı televiziyanın imicinə güclü ziyan vurur, amma nədənsə bunu telekanal rəhbərliyi görmür, ya da... Efirdə belə bir aparıcını görən tamaşaçı isə bunu özünə qarşı təhqir hesab edir, telekanalı daha az izləyir.

Kommersiya telekanalların aparıcılarına baxanda aydınca görünür ki, intellektual bazaya, normal söz ehtiyatına və ana dilində savadlı danışıq qabiliyyətinə malik deyillər. Bunu söz bazasının zənginliyi barədə də demək olar. Məsələn, Avropa ölkələrində, Rusiyada TV və mətbuatda 200-300 mindən çox söz istifadə olunduğu halda, Azərbaycanda mediada istifadə olunan sözlərin sayı 50 mindən artıq deyil. Son vaxtlar isə əksər aparıcı və jurnalistlər cəmi bir neçə min sözlə danışır və yazırlar ki, bu da dilimizin imkanlarına müvafiq deyil.

Bəzi aparıcılar robotu xatırladır. Standart sözlər və ifadələr, şablon cümlələr, məişət danışıq stili

Elə aparıcılar var ki, diksiyası yerindədir, amma danışan kimi hiss edilir ki, onun savad və dünyagörüşü çox azdır, həyat təcrübəsi yoxdur. Aparıcıların yaş faktoru da olduqca vacibdir. Bizim xəbər aparıcılarına baxın, çoxu 20-25 yaşlı gənclərdir. Həyat təcrübəsi az olan, savadı və söz bazası zəif olan birinin hökmlü intonasiya ilə TV-dən xalqa məsləhət verməsi də bir başqa problemdir.

Televiziya və radiolardakı bu problemə nəzarət edən, cəza tədbiri görən bir instansiya olmadığından vəziyyət yaxşılaşmaq əvəzinə pisləşir. Üstəlik, televiziya və radioların ucuz işçi qüvvəsi olaraq diletantları cəlb etməsi, peşəkarların kənarda qalmasına səbəb olur və nəticədə bu özünü efirdə aydın göstərir.

Bu məsələ çox vacibdir, biz ana dilimizi qorumasaq, tezliklə dilimiz tamam dəyişəcək, nəsillər arası əlaqə qırılacaq, yeni nəsillər köhnə nəsillərlə bir-birini başa düşməyəcək, yenilər köhnə ədəbiyyatı oxuyanda, köhnə filmlərimizə baxanda çoxunu başa düşməyəcək. Min illərdir qoruyub bu günədək gətirib çıxardığımız milli sərvətimizi indi itirməli deyilik. Ana dilinin qorunması haqda xüsusi qanun qəbul olunmalı, mediada ana dilinin qaydalarına uyğun olmayan, dilimizin rəsmi lüğət ən azı qınaq tətbiq olunmalıdır. Dəfələrlə qəsdən təkrarlanan hallarda isə cərimələr tətbiq etmək olar.

# Azərbaycan qadınının ölkənin tərəqqisində danılmaz payı var



*Natəvan Əsədova,*
*Riyaziyyat üzrə fəlsəfə doktoru*

***Bu gün müstəqil Azərbaycanda qadınların cəmiyyətdəki yeri və rolu həm xalqımızın öz mental ənənələrinə bəslədiyi hörmət, həm də dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək qiymətləndirilir. Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdə layiqli mövqeyi firavanlığın təminatlarından biridir. Dünya mədəniyyəti xəzinəsinə nadir incilər bəxş etmiş xalqımızın mənəvi dəyərlərinin formalaşmasında və inkişafında da qadınlarımızın böyük rolu olub. Eyni zamanda, Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini veriblər. Onların bir çoxunun adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb.***

XX əsr bütün dünyada qadınların rolunun cəmiyyətdə artması ilə yadda qalıb. Azərbaycan qadını istər Xalq Cümhuriyyəti dövründə, istərsə də sovet hakimiyyəti illərində yaradılan imkanlardan xalqın, dövlətin, cəmiyyətin mənafeyi naminə çox səmərəli istifadə edib.

Bu gün isə müstəqil Azərbaycanda qadınların cəmiyyətdəki yeri və rolu həm xalqımızın öz mental ənənələrinə bəslədiyi hörmət, həm də dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək qiymətləndirilir. Çağdaş Azərbaycan qadını ana olmaqla yanaşı, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmuru, xalqın inanıb səs verdiyi deputatdır. Bu fəallıq Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən, qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir. Ulu öndər Heydər Əliyevin qətiyyətli addımları nəticəsində 1993-cü ildən qadınların ictimai-siyasi həyata transformasiyası, onların dövlət idarəçiliyində təmsilçiliyi, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması dövlət idarəçiliyi kursunun prioritet istiqamətlərindən birinə çevrilib. Heydər Əliyevin Azərbaycan qadını ilə bağlı fikirləri olduqca qiymətlidir: "Azərbaycan xalqı həmişə qadına, onun cəmiyyətin həyatında oynadığı rola, tutduğu yüksək mövqeyə böyük hörmətlə yanaşmışdır. Xalqın ən əziz, qiymətli və müqəddəs hesab etdiyi vətən, torpaq, dil anlayışları ana adı ilə bərabər tutulmuşdur. Qadın adına göstərilən dərin ehtiram, sonsuz ana məhəbbəti söz və sənət abidələrimizdə öz parlaq təcəssümünü tapmışdır. Ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli nümayəndələri öz əsərlərində Azərbaycan qadınının mərdliyini, gözəlliyini, mənəvi saflığını vəsf etmişlər".

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq edib və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaradıb. Qadın hüquqlarının müdafiəsinə etibarlı zəmin formalaşdıran Konstitusiyanın 25-ci maddəsində hamının qanun və məhkəmə qarşısında bərabərliyi, habelə kişi ilə qadının eyni hüquq və azadlıqlara malik olduğu birmənalı şəkildə təsbit edilib. Həmin maddənin üçüncü hissəsi cinsindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verməklə yanaşı, insan və vətəndaş hüquqlarının və azadlıqlarının cinsi mənsubiyyətə görə məhdudlaşdırılmasını da qadağan edir.

Konstitusiyanın qəbulundan sonra respublikamızda gender bərarbərliyinin təmin olunması istiqamətində mühüm addımlar atılıb. Ulu öndər Heydər Əliyevin 1998-ci il 14 yanvar tarixli fərmanı ilə gender siyasətinin həyata keçirilməsi məqsədi ilə Qadın problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Komitənin yaradılmasında əsas məqsəd qadınların hüquqlarının qorunmasından və ölkəmizin sosial və siyasi həyatında onların iştirakının artırılmasından ibarət olmuşdur. 2000-ci ildə ulu öndər Heydər Əliyev qadınların kişilərlə hüquq bərabərliyini, xüsusilə, onların dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək məqsədilə "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman imzalayıb. Fərmanda qadınların bugünkü inkişaf, tərəqqi dövrünə qədər keçdiyi gərgin, keşməkeşli mübarizə yoluna nəzər salınıb, respublikamızda möhtəbər və möhtəşəm qadın hərəkatının fəaliyyətinə yüksək qiymət verilib. Fərmanda xüsusi vurğulanıb ki, Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla, qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsilçiliyi təmin edilməlidir. Həm dövlət komitəsinin yaradılması, həm də fərmanın imzalanması respublikamızda qadın siyasətinin həyata keçirilməsində yeni mərhələ açıb.

2000-ci ildə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı (2000-2005-ci illər) təsdiq edilib. Milli Fəaliyyət Planında dövlət tərəfindən qadın probleminə daim diqqət yetirilməsi, qadın problemləri ilə bağlı təxirəsalınmaz konkret tədbirlərin həyata keçirilməsi, dövlət proqramlarının hazırlanması öz əksini tapıb.

2006-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi kimi yenidən formalaşdırılıb. Hazırda Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

2006-cı ildə Milli Məclis Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü əsasında "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul edib. Qadın, kişi bərabərliyinin qorunması istiqamətində xüsusi əhəmiyyət kəsb edən bu qanunda gender balansının qorunması ilə bağlı hüquqi tənzimləmə mexanizmi öz əksini tapıb. Qanunda gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri və vəzifələri müəyyən edilib.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva hərtərəfli fəaliyyəti ilə həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadının nüfuzunu daha da yüksəklərə qaldırır. Mehriban Əliyeva Azərbaycan Prezidentinin ən yaxın silahdaşı kimi, dövlət başçısı ilə birlikdə Azərbaycan xalqının və Azərbaycan dövlətinin qarşısında duran bütün vəzifələri şərəflə yerinə yetirir. Yarandığı ilk gündən xeyirxahlıq və ümid məbədinə çevrilən Heydər Əliyev Fondu Azərbaycanda həyata keçirilən dövlət qadın siyasətinə, gender bərabərliyinin təmin olunmasına mühüm töhfələr verir. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti cəmiyyətimizdə qadınlara münasibətdə Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılması, xanımların ictimai həyatda fəal iştiraka cəlb edilməsi üçün müstəsna əhəmiyyət daşıyır. Mehriban xanım Əliyeva müasir Azərbaycan qadınını təcəssüm etdirir. O, həm ictimai xadim, həm ailə xanımı, həm ana kimi bütün qadınlarımıza cəmiyyətin həyatında layiqli yer tutmaq nümunəsini göstərir. Azərbaycan qadını üçün səciyyəvi olan humanizm, qayğıkeşlik və insanpərvərlik kimi ali mənəvi keyfiyyətlər Mehriban xanım Əliyevanın şəxsiyyətində daha parlaq təcəssümünü tapır. Onun fəaliyyəti milli-mənəvi dəyərlərə söykənən və intellektual yüksəlişə xidmət edən ideyaların cəmiyyətdə daha da zənginləşməsinə və möhkəmlənməsinə yönəlmişdir.

8 Mart- Beynəlxalq Qadınlar Günüdür. Bu günün ölkəmizdə də geniş şəkildə qeyd olunması qadının həyatımızdakı əvəzsiz rolunun, anaya hörmət və ehtiramın, zəngin mənəvi dəyərlərimizin parlaq ifadəsidir. Cəmiyyət qarşısında öz məsuliyyətini bütün zamanlarda dərindən dərk edən Azərbaycan qadını bundan sonra da müstəqil respublikamızın tərəqqisinə böyük töhfələr verəcək. Bütün xanımlarımızı 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, onlara ailə səadəti, xoşbəxtlik, cansağlığı və işlərində müvəffəqiyyətlər arzulayıram.



# "Bayramqabağı qiymət artımı müvəqqətidir"

*EKSPERT AÇIQLADI*

"Bazarlarda qiymət artımı təkcə bayram ərəfəsi ilə bağlı deyil. Əslində, bu artımlar fevral ayında da müşahidə olunurdu, yanvar ayında da var idi, hətta dekabr ayında da qiymətlərdə artım hiss olunurdu".

SİA mövzu ilə bağlı iqtisadçı-ekspert Xalid Kərimlinin fikirlərini öyrənib.O bildirib ki, bazarlarda baş verən qiymət dəyişiklikləri yalnız bayram faktoruna bağlı deyil: 'Lakin bayram ərəfəsində müəyyən məhsullara - xüsusilə bayram süfrəsi üçün istifadə olunan məhsullara - tələbat artdığına görə bazar qanunlarına uyğun olaraq qiymətlərdə müəyyən artım müşahidə olunur. Bu, normal bazar prosesidir: tələbat yüksəldikcə qiymətlər də müəyyən qədər artır. Bayram dövründə həmin məhsullarda müvəqqəti qiymət artımı baş verir, lakin bayramdan sonra adətən bu qiymətlər yenidən sabitləşir və əvvəlki səviyyəyə qayıdır.Qiymətlərin ümumilikdə yüksək olmasına təsir edən əsas amillərdən biri ölkədə müşahidə olunan inflyasiyadır. Son proseslərdə İranla bağlı baş verən hadisələr də bazara müəyyən təsir göstərə bilər. Çünki bazara daxil olan məhsullar arasında daha ucuz məhsulların bir hissəsi İrandan gətirilirdi və bu da qiymətlərin müəyyən qədər tarazlaşmasına kömək edirdi.Bundan başqa, İran həm də tranzit ölkə rolunu oynayırdı. Türkiyədən gələn məhsulların bir qismi İran üzərindən ölkəmizə çatdırılırdı. Eyni zamanda, Çindən gələn bəzi məhsulların da müəyyən hissəsi İran vasitəsilə bazara daxil olurdu. Bu səbəbdən son proseslərin bazara təsiri artıq hiss olunmağa başlayıb və gələcəkdə də müəyyən təsirlər göstərə bilər.




Yəni ümumilikdə tələbatın artması bazarın normal prosesidir. Digər tərəfdən isə inflyasiya faktoru mövcuddur".

*Günel Fərzəliyeva*

BAXIŞ BUCAĞI

# “Nüvə Klubu” və artan təhdidlər




***Yaxın Şərqdə gedən münaqişə nüvə silahlarının əhəmiyyətini açıq şəkildə nümayiş etdirir. Söhbət taktiki silahlardan gedir. Bir anlığa düşünək, əgər arsenalda taktiki nüvə silahları olsaydı, İranın Amerika hərbi bazalarına zərbələri nə qədər təsirli olardı? Hava limanları ümumiyyətlə ənənəvi silahlarla sıradan çıxarmaq mümkün deyil - İranın yaxın dostu Rusiyanın Ukraynadakı təcrübəsi bunu açıq şəkildə göstərir.***

Nüvə silahlarının siyasi aspekti daha da əhəmiyyətlidir. Şimali Koreya on illərdir öz qaydaları ilə yaşayır, çünki Kim klanı Vaşinqtonu nüvə başlığı ilə vurmaq üçün real imkana malikdir. Bu, amerikalıları çox qorxudur. Bu yaxınlarda ”Nüvə müharibəsi: Ssenari” adlı bir kitab nəşr olunub və orada KXDR-dən atılan Koreya ballistik raketi qlobal apokalipsisin başladığını qeyd edib. Müəllif Enni Ceykobsen bu hadisənin səbəbini izah etmir, lakin Yer üçün nəticələrini aydın şəkildə təsvir edir. Nüvə Klubu İraqı, Yuqoslaviyanı, Əfqanıstanı, Liviyanı və Suriyanı asanlıqla darmadağın etdilər və indi həmin ssenari İrana qarşı müharibədə tətbiq edilir. İndi İrana qarşı başlayan bu müharibə, ilk növbədə, yalnız İranda deyil, nüvə silahı inkişaf etdirmək lehinə bir hərəkata səbəb ola bilər. Belə bir hərəkat dərhal İran İslam Respublikasına qonşu ölkələrdə, ərəb ölkələrində ortaya çıxacaq.

Doğrudan da, niyə bəzilərinə nüvə bombaları ilə oynamağa icazə verilir? Əslində, kütləvi qırğın silahlarının sahibləri bu proqramı heç kimlə paylaşmamaq qərarına gəlmişdilər. Bu, dünyanın əksər hissəsi tərəfindən imzalanan Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilə idi. İdeal olaraq, hər kəs bir gecədə nüvə silahlarından imtina etməli idi. Amma nüvə silahına iştaha hər keçən gün artır və ölkələrin əksəriyyəti bunu özlərinin təhlükəsizlik immuniteti kimi qələmə verirlər. Yeni nüvə silahı daha çox sülh qarantisi kimi təqdim olunur. Hindistan və Pakistan nüvə silahını məhdudlaşdırmaq barədə heç bir sənədə imza atmayıb və öz bombalarını hazırlayıblar. Bəlkə də buna görə iki müharibə aparan güc hələ də genişmiqyaslı müharibədən çəkinir.

Şimali Koreya müqaviləni imzalasa da, bu, Kim klanının superbombasını inkişaf etdirməsinə mane olmayıb. Koreya hakimiyyəti burada özünü haqlı çıxarmağa çalışır: əks halda amerikalılar çoxdan Pxenyanda ”Səhra Fırtınası” əməliyyatına başlayardılar. Bomba suverenliyə bərabərdir. İsrail müqaviləni imzalamayan ölkələrdəndir. Fransa, ABŞ və Almaniyanın (sonuncu nüvə raketləri üçün sualtı qayıqlarla kömək etdi) köməyi ilə İsrail 90-100 döyüş başlığından ibarət olduqca güclü nüvə qalxanı yaradıb. İran da nüvə silahı istəyirdi. Amma bu addımı ona baha başa gəldi.

## Bombanın bir addımlığında

Nüvə klubunun yaxın gələcəkdə genişlənmək üçün bütün şanslar var. Bir sıra dövlətlər suveren bomba yaratmaq ərəfəsindədir. Həqiqət budur ki, nüvə texnologiyası, digərləri kimi, zamanla getdikcə daha çox əlçatan olur. Keçən əsrin ortalarında nüvə silahları seçilmiş bir neçə nəfərin əşyası kimi görünürdü - indi vəziyyət dəyişib. Öz bombanızı yaratmaq üçün üç qaydaya əməl etməlisiniz. Birincisi, elmi məktəb yaradın və nüvə fiziklərindən ibarət bir qrup yetişdirin. İstənilən təhsil prosesi vaxt və xeyli vəsait tələb edir, lakin bu yola səy göstərənlər yiyələnir. Hazır mütəxəssisləri almaq da mümkündür, lakin bu, hələlik mümkün deyil - bu kalibrli mütəxəssislər nadir hallarda kommersiya baxımından əldə edilə bilər. Bütün bunları nəzərə alsaq belə, öz mütəxəssislərini yetişdirmək ölkələrin böyük əksəriyyəti üçün çətin bir iş olmayacaq. Əsas odur ki, təcrübə və bacarıq üçün uyğun laboratoriya tapasan.

Nüvə bombasının uğurlu yaradılması üçün ikinci vacib amil nüvə yanacağını zənginləşdirmək üçün infrastrukturun mövcudluğudur. Məsələn, atom elektrik stansiyası. Üçüncü və ən vacib şərt uran və silah dərəcəli plutoniumun mövcudluğudur. Hər üç şərtin eyni vaxtda yerinə yetirilməsi artıq qeyri-mümkün hesab edilmir. Fevralın sonu və martın əvvəlində İran raketləri ilə vurulan Səudiyyə Ərəbistanı da bu məsələni nəzərdən keçirə bilər. Birincisi, əgər amerikalılar onları Tehrandan qoruya bilmirlərsə, onlarla əməkdaşlıq etmək nə dərəcədə rahatdır? İkincisi, niyə Ər-Riyad öz bombasını yaratmır? Səudiyyə Ərəbistanının artıq Çin və Rusiya ilə mülki nüvə enerjisi ilə bağlı müqavilələri var və fəal şəkildə infrastruktur qurur. Zənginləşdirmə və hazır buraxılış vasitələri (ballistik raketlər) ilə silah dərəcəli nüvə silahlarına keçid cəmi 6-12 ay çəkəcək.

”Səudiyyə dominosu” riski xüsusilə yüksəkdir: əgər Ər-Riyad texnologiyanı əldə edərsə, Türkiyə, Misir və ehtimal ki, digər Körfəz dövlətlərini təhrik edəcək. Amerikalılar da boş dayanmırlar. Fevral ayının sonunda Tramp administrasiyası ABŞ Konqresinə rəsmi olaraq Səudiyyə Ərəbistanı ilə ikitərəfli mülki nüvə əməkdaşlığı müqaviləsi - 1954-cü il Atom Enerjisi Qanununa əsasən 123-cü maddə Sazişi irəli sürdüyünü bildirib. Bu, 2025-ci ilin noyabr ayında Vəliəhd Şahzadə Məhəmməd bin Salmanın Vaşinqtona səfəri zamanı imzalanmış Birgə Bəyannamənin birbaşa davamı idi.

Əmirliklərin öz ərazisində uran zənginləşdirməsindən və işlənmiş yanacağın təkrar emalından tamamilə imtina etməyi öhdəsinə götürdüyü BƏƏ ilə 2009-cu il müqaviləsindən fərqli olaraq, Vaşinqton artıq Ər-Riyaddan belə hüquqi cəhətdən məcburi zəmanətlər tələb etmir. Beləliklə, Trampın fevral bildirişi Vaşinqtonun yeni yanaşmasını təsirli şəkildə təsdiqləyir: kommersiya və geosiyasi maraqları sərt məhdudiyyətlərdən üstün tutur. Bu, Yaxın Şərqdə başqa bir ”eşik” nüvə gücünün yaranma riskini əhəmiyyətli dərəcədə sürətləndirir və xüsusilə İran hücumlarından sonra qlobal yayılmama rejiminin bütün arxitekturasını şübhə altına alır.

Nüvə silahının yayılmamasının bütün mürəkkəblikləri ABŞ ətrafında fırlanır. Və bu, təkcə Fars körfəzi ilə bağlı deyil. Avropada NATO uzun müddətdir ki, ”birgə nüvə missiyaları” tətbiq edir. Bu təlimlərin bir hissəsi olaraq, ABŞ-ın Avropadakı müttəfiqləri nüvə silahı təlimləri keçirir və Amerika taktiki B-61 bombaları onların ərazisində saxlanılır. Bu, nüvə silahı olmayan dövlətlərə kütləvi qırğın silahlarına dolayı yolla çıxış imkanı verdiyi üçün Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilənin (NSYM) birbaşa pozulmasıdır. Vaşinqton proqramı iki arqumentlə əsaslandırır: bombalar 1968-ci ildə NSYM imzalanmamışdan əvvəl Avropada idi və onların çıxarılması üçün ayrıca razılaşma yox idi. Üstəlik, bombalar ABŞ ordusunun tam fiziki nəzarəti altında qalır - açarlar və aktivləşdirmə kodları yalnız ABŞ-da saxlanılır.

İctimaiyyətə açıq məlumatlara görə, Avropada təxminən 185 Amerika B-61 bombası yerləşdirilib: 75-i İtaliyada, 20-si isə Belçika, Almaniya və Hollandiyada. Polşanın özündə hələlik Amerika nüvə silahı yoxdur. Lakin onun yeni saxlama yeri kimi namizədliyi bir neçə ildir ki, fəal şəkildə müzakirə olunur. 2021-ci ildə Almaniya seçki kampaniyası zamanı ictimaiyyətin bəzi üzvləri bombaların Bühel hava bazasından çıxarılmasını tələb ediblər. O dövrdə NATO-nun baş katibi Yens Stoltenberq açıq şəkildə bildirib ki, Almaniya imtina edərsə, silahlar sadəcə ”şərqə doğru hərəkət edəcək”. Oxşar işarələri ABŞ-ın Varşavadakı keçmiş səfiri Corcette Mosbaher də edib. Bundan sonra Almaniyada müzakirələr səngiyib və Münhen Təhlükəsizlik Konfransının keçmiş rəhbəri Volfqanq İşinqer bombaların Polşaya köçürülməsinin ”Avropa təhlükəsizliyi üçün fəlakət” olacağı barədə xəbərdarlıq edib. Bu gün Polşanın özü bu ideyanı fəal şəkildə təbliğ edir. 2025-ci ilin sentyabr ayında, vəzifəyə başladıqdan dərhal sonra Polşanın xarici işlər naziri Karol Navrotski ölkənin birgə nüvə missiyası proqramına daxil edilməsini istəyəcəyini açıqlayıb. Bu, avtomatik olaraq Polşa pilotlarının Amerikanın F-35 və F-16 nüvə zərbə təyyarələrində təlimlərə başlayacağı, çatdırılma sistemlərinin isə (eyni təyyarənin) Varşavanın nəzarəti altında qalacağı deməkdir. Eyni zamanda, Polşa Müdafiə Nazirliyi yayılmama rejiminə sadiqliyini açıq şəkildə təsdiqləyir - bu, ikili danışıqların klassik nümunəsidir.

Eyni zamanda, digər Şərqi Avropa ölkələri də nüvə silahlarını qəbul etməyə hazır olduqlarını bəyan ediblər. Estoniya xarici işlər naziri Marqus Tsaxna qeyd edib ki, Tallin NATO qərar verərsə, öz ərazisində kütləvi qırğın silahlarının yerləşdirilməsini istisna etmir. Türkiyənin xarici işlər naziri Hakan Fidan ötən həftə açıq şəkildə bildirib ki, İran bomba əldə edərsə, Ankara nüvə silahlanma yarışına qoşulmaq məcburiyyətində qalacaq. Türkiyənin artıq öz nüvə elektrik stansiyası, tədqiqat reaktorları və müəyyən miqdarda suverenliyi var ki, bu da Vaşinqtonu şantaj etməyə imkan verir - 2016-cı il çevriliş cəhdindən sonra İncirlik hava bazası böhranını xatırlayaq.

Bu vəziyyətdə Rusiyanın seçim imkanları azdır. Birincisi, həddindən artıq güclü nüvə neofitlərinə Rusiyanın nüvə silahları yetərli deyil. İkincisi, ölkə nüvə qalxanını gücləndirməyə davam etməlidir. Üçüncüsü, amerikalılar nüvə klubunu genişləndirmək və Rusiyanın müttəfiqləri siyahısında azalmanı təmin etmək planına sadiqdirlər. Qlobal balansı, nə olursa olsun, öz xeyirlərinə həll etmək istəyi aktualdır.

**V.VƏLİ**

## Qeydiyyatsız yaşamağa görə sizi cərimə gözləyir - XƏBƏRDARLIQ



Vətəndaşların yaşadığı yer üzrə qeydiyyata düşməsi qanunvericilikdə öz əksini tapsa da buna əməl etməyənlər hələ də var. Məsələ ilə bağlı hüquqşünas Arslan Mikayılov mətbuata açıqlamasında bildirib ki, əgər vətəndaş hər hansı səbəbdən yaşayış yerini dəyişərsə, mütləq İcra Hakimiyyəti orqanına müraciət edərək müvəqqəti qeydiyyata alınmalıdır:

”Qeyd olunan qanunvericiliyin tələblərinə riayət edilmədikdə İnzibati Xətalar Məcəlləsinin 563-cü maddəsinə əsasən, 30 manat məbləğində cərimə oluna bilərsiniz. Vətəndaşın yaşayış yeri üzrə qeydiyyata alınması ilə bağlı müvafiq nəzarəti DİN həyata keçirir. Qanunvericiliyə əsasən, vətəndaş yaşayış yerini dəyişdikdə 10 gün müddətinə müvafiq orqana müraciət edib qeydiyyata düşməlidir”.

**Mətləb**

# Təlatümlü dünyada Azərbaycan sabitlik adasıdır



Dünyada qarşıdurmalar, amansız müharibələr əksər ölkələrin daxilində qeyri-stabil vəziyyət yaradıb. İnsanlar müharibələrdən qaçmaq üçün yaşadıqları əraziləri kütləvi şəkildə tərk edirlər. BMT-nin hesablamalarına görə, son bir il ərzində 200 milyona yaxın insan müharibələrdən, daxili qarşıdurmalardan qaçaraq nisbətən sabit ərazilərə köç ediblər. Təbii ki, bu vəziyyət dünyanın təhlükə qarşısında olduğunu göstərir. ABŞ və İsrailin fars-molla rejiminin nəzarət etdiyi ərazilərə intensiv raket zərbələri endirməsi Yaxın Şərqdə vəziyyəti kritik vəziyyətə yüksəldib. Qarşılıqlı raket zərbələri nəticəsində yüzlərlə insan öldürülür, şəhər və qəsəbələr dağıdılır. Bunun fonunda insanlar sağ qalmaq ümidi ilə kütləvi şəkildə yurd-yuvalarını tərk edirlər. Vəziyyətin bundan sonra daha da gərginləşəcəyi ehtimal olunur. Çünki ABŞ və İsrail fars-molla rejiminə qarşı quru əməliyyatları keçirməyi planlaşdırır. Belə olacağı təqdirdə, mülki insanlar daha çox zərər görə bilər. Təhlükədən qaçmaq üçün əhali öz isti ocaqlarını tərk etmək məcburiyyətində qalacaq.

### Azərbaycanın uğurlu inkişaf strategiyası

Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu inkişaf strategiyası nəticəsində ölkəmiz dayanıqlı və davamlı iqtisadi inkişafa nail olub, əhalinin sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb, beynəlxalq aləmdə nüfuzu daha da artıb, dövlətimiz Cənubi Qafqazın siyasi, iqtisadi mərkəzinə çevrilib. Əhalinin sosial vəziyyətinin yaxşılaşması isə davamlı xarakter daşıyır. Vaxtaşırı olaraq şəhid ailələrinin, qazilərin mənzil, məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ümummilli Lider Heydər Əliyev irsini qətiyyətlə davam etdirərək, Qarabağ problemini birdəfəlik həll etdi, ata vəsiyyətini, xalqına vermiş olduğu vədini yerini yetirərək, tarix yazan lider olduğunu nümayiş etdirdi. 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində qələbə ilə başa çatdı.

### Tarixi kəlamlar diqqəti çəkir

2023-cü ilin sentyabrın 19-da başlayan və cəmi bir neçə saat çəkən antiterror əməliyyatları ilə Qarabağdakı separatizmə tamamilə son qoyuldu və hərbi canilərin əsas başçıları həbs edilərək istintaq orqanlarına təhvil verildilər. Artıq onların hər biri məhkəmənin qərarı ilə layiq olduqları cəzanı alıblar. Ali Baş Komandamız, Prezidentimiz İlham Əliyevin 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində üçrəngli Bayrağımızı ucaltdıqdan sonra xalqa müraciətində dediyi tarixi kəlamlar diqqəti çəkir: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi. Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək". Hazırda isə Azərbaycan uğurları fonunda, Qarabağımız yenidən qurulur. Təmir-tikinti quruculuq və abadlıq işlərindən sonra insanlar öz dogma yurd-yuvalarına qayıdırlar. Bu qayıdış Prezidentimiz İlham Əliyevin dediyi kimi əbədidir.

***İLHAM ƏLİYEV***

# Müharibəni Tramp başladı, milyonları Putin qazanır...

## Mətləb Salahov: "İran müharibəsinə görə yüksələn enerji qiymətlərindən ən çox Rusiya yararlanır"



"Hazırda İran ətrafında gedən müharibə daha çox Rusiyaya sərf edən planda davam edir. Dünyada enerji qiymətləri sürətlə yüksəlir ki, bu da Rusiyanın əlini gücləndirən əsas faktordur. İş o yerə çatıb ki, Avropa Şurasının prezidenti Antoniu Koşta elan edib ki, Yaxın Şərqdəki müharibənin qazanan tərəfi Rusiyadır. Hazırda Rusiya dünyaya ikiqat baha qiymətə enerji satır. Bu, real tablodur. Donald Tramp İranın nüvə imkanlarını heçə endirdiklərini və onun təhlükəli ölkə imicindən əsər-əlamət qalmadığını desə də, bunlar inandırıcı görünmür. Çünki vaxtilə ABŞ İraqa və digər Yaxın Şərq ölkələrinə də "nüvə silahı var" iddiası ilə hücum etmiş, sonradan bunun bir bəhanədən başqa bir şey olmadığı üzə çıxmışdı. İndi də İranla bağlı nüvə iddiaları sadəcə iddiadır."

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, biz D.Trampın İran müharibəsinə hansı gizli məqsədlə başladığını bilmirik. Lakin görünən odur ki, hələ ki, İranda nə rejim dəyişikliyi baş verib, nə küçələrə çıxıb ABŞ bombalarını bayram edən milyonları görürük, nə də Ağ Ev rəhbərinin iddia etdiyi ordu zəifləməsini.

"Əlbəttə. bu müharibəyə başlayanda Ağ Evdə gizli plan da çoxdan hazırlanıb. Sadəcə, üzdə olan vəziyyət odur ki, öldürüldüyü iddia edilən ata Xomeneinin əvəzinə İranda oğul Xomenei hakimiyyətə gəldi. Rejim daxilində parçalanma da gözə dəymir. D.Tramp hansı gizli məqsədlərinə çatdı? - bu, müəmmalıdır. Lakin bütün bunların əvəzində dünya enerji bazarında neftin və qazın qiymətləri kəlləçarxa qalıb. Hazırda neftin 1 barelinin qiyməti 110 dolları keçib və hadisələr bu cür davam edərsə, qiymətin hətta 170-200 dollara qədər qalxması da proqnozlaşdırılır. Bu vəziyyətdən isə Rusiya yetərincə gözəl faydalanır. Sanki D.Tramp Vladimir Putinin "əlinə oynayır". Əlbəttə, nə baş verdiyi sirdir, amma hələ ki, məqsədsiz müharibəyə başlayanın D.Tramp, qazananın isə V.Putin olduğu üzdə olan həqiqətdir".

***Afət Tahirqızı***



# Əs, qaytar, bizim olanları...

**MƏTANƏT**

**Dedim, dedim, dedim, yazdım, yazdım, yazdım, görəndə ki, faydası olmadı, üzümü tutdum Novruzaqədərki çərşənbələrdən birinə-Yel çərşənbəsinə. Hə, indi qulaq as mənə, Yel çərşənbəsi. Bəlkə sən dinləyəsən, bizim məhv etdiklərimizi sən qaytarasan...**

Dinlə məni, ey külək. Əs, əsrlər, illər öncəyə əs. Qarşına çıxan nə qədər unudulan adət-ənənələrimiz var, hamısını geriyə qaytar. Gəlsinlər, görsünlər ki, biz onların çoxunu torpağın altına gömmüşük. Onlardan biri: ta indi evlərdə səməni cücərdən yoxdur, indi səməni cücərdib satanlar var, hamı hazır səməni alır.

Ta indi Novruzqabağı təmizlik işlərini də görən yoxdur: bağ-bağça təmizləyən, ev tökən, yorğan-döşəyi havaya verən, evin künc-bucağını dərindən təmizləyən, xalça, palaz çırpan, pərdə yuyub, asan yoxdur. Deyirlər, nə olub ki, hər yer tərtəmizdir.

Gəl, ey külək, bəlkə özünlə keçmişdən onu qaytarasan ki, çərşənbələrdə hər dəfə od yandırılar, hamı çıxardı dayanardı ocaq kənarında, deyibgülərdi, çərşənbələri bayram ovqatı ilə qeyd edərdi. İndi hamı girib evlərə, oturub türk seriallarının qarşısında. Heç balkonlardan başını aşağı uzadan da yoxdur.

Gəl, ey külək. Gəl və özünlə o adətləri gətir ki, bayramda ölkənin bu başından o biri başına övladlar ata-ana əlini öpməyə, bayramlaşmağa gedərdilər. İndi haradadır o adətlər... Novruzda bir həftəlik tətildə çoxları istirahətini qoyub rayonlara-kəndəmi gedəcək? Deyirlər ki, görüntülü danışmaq nədən yanadır. Danışmışıq, bayramlaşmışıq da...

Gəl, ey külək, gəl, bu dövrün insanlarına danış ki, hər Novruzda insanlar qəbiristanlıqlara ölülərini ziyarətə gedərdilər. İndi unudulub çoxları tərəfindən o adətlər. Hətta ən yaxın qohumlara belə onlayn başsağlığı verənlər var. Telefon nə üçündür, deyənlər var. Uzaq yolu yaxın edən telefonlar....

Gəl, ey külək. Gəl, özünlə dünəndə qalanların çoxunu gətir. Gətir, görək ki, harada qaldı o gözəl bayramlar. Bayram günü gecə səhərədək evlərə torba atmalar, bayramdan pay alıb, sonra uşaqlarla birlikdə qatıb bölüşmələr...

Gəl, gətir, görsün hər kəs ki, bayramı bir vaxtlar necə qarşılar, necə yola salardılar. Milli geyimdə qızlarla, oğlanlarla. Xeyr, tədbirləri deyil, məhəllələrdə ocaq başındakı milli geyimli oğlan-qızları deyirəm. Saatlarla çalan-oynayan qonşuları, ocaq üstündən tullanıb "ağırlığım-uğurluğum odlara!",- deyən qonşuları deyirəm.

Gəl, ay külək, gəl, özünlə çərşənbələrin qaydaqanununu gətir. Ta açılmayan çərşənbə süfrələrinin vacibliyindən danış. Çərşənbələrdə restoranlarda bizə məlum olmayan yeməkləri yeyənlərə de ki, həmin günü adam öz evində olar, öz süfrəsi başında əyləşər. Danış ki, unudulmasın, o süfrələr, hər çərşənbə açılsın ki, Novruza hazır olsun.

Gəl, ey külək, gəl, özünlə əlimizdən zorla alınmış baharı da gətir. Elə əs ki, vur, uçur hündürmərtəbəli binaları, o binaları ki, onlar yüzlərlə ağacın kökləri üzərində ucaldılıb, baharı əlimizdən alıb. Gəl, bu yandan gir, o yandan çıx, gör kim alıb baharı əlimizdən, çırpıl üzünə, bu dünyanı o biri dünyaya apara bilməyəcəyini çırp üzünə. Anlat, anlasın ki, bu dünyanın malı burada qalır, o biri dünyaya gedə bilməz...

Gəl, ey külək, gəl ki, barı sən gəl. Gəl ki, heç olmasa, çərşənbələrin sıralanmasını unudanlara özünü göstər. Göstər ki, çərşənbələrdən Yel çərşənbəsi olduğunu unutmasın insanlar. Yoxsa halımız heç də yaxşı olmaz... Əs, qaytar, bizim olanları...

# 10 min müəllif Sİ-ə qarşı: əməyimizi oğurlayır!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

Kazuo İşiquro, Filippa Qreqori və Riçard Osman da daxil olmaqla minlərlə müəllif süni intellekt şirkətlərinin onların əsərlərindən icazəsiz istifadə etməsinə etiraz olaraq səhifələri boş bir kitab nəşr etdiriblər. "The Guardian" yazır ki, təxminən 10.000 yazıçı "Bu kitabı oğurlama" kitabını dəstəkləyib, belə ki kitabda yalnız onların adlarının siyahısı yer alıb. Kitabın nüsxələri Böyük Britaniya hökumətinin müəllif hüquqları qanunvericiliyində təklif olunan dəyişikliklərin iqtisadi dəyəri ilə bağlı qiymətləndirmə aparmasından bir həftə əvvəl, çərşənbə axşamı London kitab sərgisində iştirakçılara paylanıb.




Kitabda adı dəc olunan müəlliflər deyirlər ki, Böyük Britaniya incəsənəti spekulyativ süni intellekt qazanclarına qurban verilməməlidir və 18 marta qədər nazirlər iqtisadi təsirin qiymətləndirilməsini, eləcə də hüquqi islahatlar barədə məsləhətləşmənin gedişatını təqdim etməlidirlər. Yaradıcı mütəxəssislər süni intellekt şirkətləri tərəfindən əsərlərinin onların iradəsindən kənar istifadə olunması ilə bağlı qəzəblidir.

Kitabın təşkilatçısı, bəstəkar və rəssamların müəllif hüquqlarını qorumaq uğrunda mübarizə aparan Ed Nyuton-Reks süni intellekt sənayesinin oğurlanmış, icazəsiz və ya ödənişsiz götürülmüş əsərlər üzərində qurulduğunu bildirib. O bildirir ki, bu, cinayətdir, özü də minlərlə qurbanı olan cinayət: "Generativ süni intellekt, insanlarla rəqabət aparır və onları dolanışıqlarından məhrum edir. Hökumət Böyük Britaniyanın yaradıcı insanlarını qorumalı və süni intellekt şirkətlərinin yaradıcı işlərinin oğurlanmasını qanuniləşdirməkdən imtina etməlidir."

Kitabın dərc olunması fikri bəstəkar Ed Newton-Rexə məxsusdur, o süni intellekt sənayesinin "oğurlanmış əsərlər üzərində qurulduğunu" söyləyir. Kitabın arxa üz qabığında deyilir: "Böyük Britaniya hökuməti süni intellekt şirkətlərinə fayda vermək üçün kitab oğurluğunu qanuniləşdirməməlidir."

Naşirlər həmçinin London kitab sərgisində süni intellekt lisenziyalaşdırma təşəbbüsünə başlayacaqlar. Qeyri-kommersiya sənaye qurumu olan Publishers' Licensing Services, kollektiv lisenziyalaşdırma sxemi qurur və bu sektoru nəşr olunmuş əsərlərə qanuni giriş imkanı verəcəyi ümidi ilə ona qoşulmağa dəvət edib.

Qeyd edək ki, süni intellekt, çatbotlar və görüntü generatorları kimi alətlər hazırlamaq üçün açıq internetdən götürülmüş müəllif hüquqları ilə qorunan əsərlər də daxil olmaqla, çoxlu miqdarda məlumat tələb edir. Bu, dünya miqyasında yaradıcı mütəxəssislər və şirkətlər arasında narahatlıq yaradıb və Atlantik okeanının hər iki tərəfində məhkəmə iddialarına səbəb olub.

Xatırladaq ki, keçən il aparıcı süni intellekt firması və Claude çatbotunun yaradıcısı olan Anthropic, startapın flaqman məhsulunu öyrətmək üçün əsərlərinin pirat nüsxələrini götürdüyünü iddia edən kitab müəlliflərinin kollektiv iddiasını həll etmək üçün 1,5 milyard dollar ödəməyə razı olmuşdu.

Britaniyalı rəssamlar hökumətin təklifinə qəzəblə cavab veriblər. Bu təklif, sahibi prosesdən imtina etmək istədiyini bildirmədiyi təqdirdə, süni intellekt firmalarının müəllif hüquqları ilə qorunan əsərlərdən sahibinin icazəsi olmadan istifadə etməsinə icazə verilməsini təklif edir. Elton Con müəllif hüquqları qanunvericiliyindəki yumşalma perspektivinə etiraz edən sənətçilər arasındadır və hökuməti "tamamilə məğlub" adlandırıb. Əsas hökumət təklifi ilə yanaşı, nazirlər üç əlavə variant təklif ediblər: vəziyyəti dəyişməz saxlamaq; süni intellekt şirkətlərindən müəllif hüquqları ilə qorunan əsərlərdən istifadə üçün lisenziya tələb etmək; və ya süni intellekt şirkətlərinə yaradıcı şirkətlər və fərdlər üçün imtina etmədən müəllif hüquqları ilə qorunan əsərlərdən istifadə etməyə icazə vermək. Hökumət həmçinin yaradıcı mütəxəssislərin süni intellekt şirkətləri tərəfindən sənətçilərin əsərlərini icazəsiz götürmək üçün istismar edilə biləcəyindən qorxduğu "kommersiya tədqiqatları" məqsədləri üçün materialdan istifadəyə görə müəllif hüquqlarından imtinanı da istisna etməkdən imtina edib. Hökumət rəsmisi deyib: "Hökumət insan yaradıcılığına dəyər verən və onu qoruyan, etibar edilə bilən və innovasiyanı açan müəllif hüquqları rejimi istəyir. Bu məsələ ilə bağlı yaradıcı sektorla sıx əlaqə saxlamağa davam edəcəyik və 18 marta qədər parlamenti yeniləmək öhdəliyimizi yerinə yetirəcəyik."

***Lalə Mehralı***

# Müstəqillik tariximizdə Mart hadisələri

Müstəqillik qazandıqdan sonra Azərbaycan xalqı ziddiyyətli dövr yaşamış, çətinliklə qazanılmış müstəqilliyin müdafiəsində mərdliklə dayanmışdır. O zaman hakimiyyətdə olan səriştəsiz, bacarıqsız qüvvələr ölkəni uçuruma doğru sürükləmişdirlər. Belə bir vəziyyətdə dövlətçiliyinin itirilməsi təhlükəsi qarşısında qalmış Azərbaycan xalqı dövlət rəhbərliyi təcrübəsinə və siyasi nüfuza malik olan Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını təkidlə tələb etdi. Ulu Öndərin hakimiyyətə qayıdışı ilə ölkədə yaranmış son dərəcə gərgin vəziyyət qısa bir zaman məsafəsində normallaşdırıldı, sağlam qüvvələrin köməyi ilə qardaş qırğınının, Azərbaycan dövlətinin parçalanmasının qarşısını aldı. Cəmiyyət həyatının bütün sahələrində yeni münasibətlərə yol açmaq, islahatların əsaslarını yaratmaq üçün tədbirlər həyata keçirilməyə başlanıldı. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandıqdan sonra ölkəmizin dünya miqyasındakı nüfuzu daha da artdı. Azərbaycan üçün həyati əhəmiyyəti olan bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunmasında, həm də xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynadı. Ulu Öndər Heydər Əliyev dünyanın bir çox aparıcı dövlətlərinin rəhbərləri, nüfuzlu beynəlxalq təşkilatlar və işgüzar dairələrlə yüksək səviyyəli rəsmi görüşlər keçirərək, Azərbaycan həqiqətlərini, dövlətin mövqeyini dünyaya çatdırdı, bununla da, ölkəmizə diqqət və maraq gücləndi. Azərbaycanın siyasi-iqtisadi əlaqələri genişləndi, mühüm müqavilə və sazişlər imzalandı. Qısa bir zamanda, Ulu Öndərin müdrik siyasəti nəticəsində, ölkədə ictimai-siyasi sabitlik yaradıldı, qanunçuluğun bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı.



## MÜSTƏQİLLİYİMİZƏ QƏSD ETMƏK CƏHDİ

Azərbaycan dövlətçiliyinə və müstəqilliyimizə qarşı yönəlmiş dövlət çevrilişi cəhdindən 31 il ötür. 1995-ci il mart ayında müstəqilliyimizə qəsd etmək istəyənlərin məkrli niyyətləri bu gün də insanların yaddaşından silinməyib. Bir qrup xəyanətkar insan ətrafına topladığı qeyri-qanuni silahlı birləşmələr vasitəsilə müstəqilliyimizə qəsd etməyə cəhd göstərmişdi. Ölkədə yaradılmış ciddi nizam-intizama tabe olmaq istəməyən dağıdıcı qüvvələr Azərbaycanın beynəlxalq aləmdə getdikcə artan nüfuzundan təşvişə düşərək, xarici himayədarlarının təhriki ilə dövlət çevrilişinə cəhd etmişdilər.

Azərbaycanda dövlət çevrilişinə cəhd mart hadisələri 1995-ci ilin mart ayının 12-dən 13-nə keçən gecə ölkənin ən ucqar nöqtəsində - Qazaxda və Ağstafada başladı. Həmin gün "OMON"-un Ağstafa və Qazax rayonunda yerləşən bölməsi tərəfindən dövlət idarələrinə silahlı hücum təşkil edildi. Hər iki rayonda dövlət əleyhinə faktiki qiyam baş verdi. Lakin mart ayının 15-də Azərbaycan Ordusunun bölmələri tərəfindən qiyam yatırıldı. 16-17 mart tarixində isə Xüsusi Təyinatlı Polis Dəstəsinin komandiri polkovnik Rövşən Cavadovun rəhbərliyi ilə Bakıda çevrilişə cəhd göstərmək istəyirlər. Hələ martın 14-də daxili işlər naziri "OMON"-un buraxılması və onun üzvlərinin 3 gün ərzində silahı təhvil verməsi barədə əmr imzalamışdı. Əmrə görə, silahı könüllü təhvil verənlər törətdikləri əməllərə görə cəzalandırılmayacaq və DİN sistemində müvafiq işlə təmin ediləcəkdilər. Bundan 2 gün sonra, yeni silahlı qarşıdurma ərəfəsində Ulu Öndər Heydər Əliyev "OMON"-çuları bağışlanmaq imkanı yaradan xüsusi Fərman imzalayır. Lakin XTPD-nin başçısı Rövşən Cavadov Xətai rayonunun o vaxtkı prokuroru, qardaşı Mahir Cavadovla birlikdə qeyri-qanuni silahlı dəstələri ilə dövlət başçısı qarşısında müəyyən şərtlər qoydular.

## HAKİMİYYƏTİ ƏLƏ KEÇİRMƏK HƏRİSLİYİ

Onu da bildirək ki, Ümummilli Liderimiz, Azərbaycan Prezidenti Heydər Əliyev 1995-ci il martın 15-də televiziya və radio ilə xalqa müraciətində Surət Hüseynovun, Rövşən və Mahir Cavadov qardaşlarının, onlarla həmrəy olan radikal müxalifət nümayəndələrinin dövlət çevrilişi cəhdini pisləyərək, qeyri-qanuni silahlı qruplaşmalara qanunsuz əməllərindən əl çəkmələri barədə dəfələrlə xəbərdarlıq etmişdi, onları əfv edəcəyini bildirmişdi. Hətta Cavadov qardaşlarının atası Bəxtiyar Cavadovla da söhbət aparmış, ona oğlanlarını vətəndaş müharibəsi və silahlı qarşıdurma yaratmaqdan çəkindirməyi tövsiyə etmişdi.

Dövlət çevrilişinə cəhd edən qeyri-qanuni silahlı birləşmələrin rəhbəri Rövşən Cavadov və onun ətrafı hakimiyyəti silah gücünə, qeyri-konstitusion yolla ələ keçirməkdə tam israrlı idi. Onlar ağsaqqalları, ziyalıları, hətta yaşlı atalarını da dinləmədilər. R.Cavadovun böyük iddiası vardı: dövlət başçısı olmaq. Cəmiyyətdə dövlət çevrilişinə cəhd göstərənlərə qarşı şiddətli nifrət yaranmışdı. Xalq kütlələri bütün bu hoqqabazlıqlara, xəyanətkar və cinayətkar əməllərə son qoyulmasını tələb edirdi. R.Cavadovun adamlarının, eyni zamanda, proseslərdən faydalanmaq arzusuna düşən dağıdıcı müxalifət partiyalarının nümayəndələrinin xalq arasında apardığı təbliğat işləri isə, heç bir nəticə vermirdi. Əksinə, belələri ictimaiyyətin qınağına tuş gəlir və ağır ifadələrlə təhqir olunmaqdan belə yan keçə bilmirdilər.

1995-ci il martın 16-dan 17-nə keçən gecə isə paytaxtın 8-ci kilometr qəsəbəsindəki "OMON"-çuların qərargahı yaxınlığında başlanan atışmada cəbhə bölgəsində, erməni təcavüzkarları ilə savaşda səngər yoldaşı olmuş döyüşçülər üz-üzə dayandılar. Ermənistan silahlı qüvvələri torpaqlarımızı işğal etdiyi bir vaxtda, Azərbaycanın paytaxtında bir qrup vəzifə hərisi hakimiyyəti ələ keçürmək üçün dövlətçiliyimizə qəsd edirdi. Onların hakimiyyət hərisliyi nəticəsində, qardaş qanı töküldü. Cavadov qardaşlarının hakimiyyəti qeyri - konstitusion yolla ələ keçirmək cəhdləri 22 hərbçi, 7 mülki şəxs, 1 polis və 8 XTPD əməkdaşının ölümünə səbəb olmuşdu. Hadisə nəticəsində, 105 nəfər yaralanmışdı. XTPD rəhbəri Rövşən Cavadov isə aldığı güllə yarasından DİN-in hospitalında vəfat etmişdi.

Belə ağır zamanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev vətəndaş qarşıdurmasına səbəb ola biləcək hadisənin qarşısını aldı və ölkədə davam edən hakimiyyət böhranına, anarxiya və özbaşınalığa son qoydu. Həmin hadisələr, bir daha göstərdi ki, Azərbaycan xalqı və onun ordusu ölkə daxilində qarşıdurma yaratmaq istəyənləri dəstəkləmir və onları müdafiə etmir. Törədilən dövlət cinayətləri Azərbaycana müəyyən zərbələr vursa da, qan tökülsə də, müstəqil Azərbaycan dövlətçiliyini bir daha sınaqdan çıxardı. Onun möhkəm, qüdrətli olduğunu göstərdi, qanunsuz zor işlətməyin mənasızlığını sübut etdi. Bütün bunlar xalqın müdrikliyinin, milli həmrəyliyinin, inamının, dövlətçiliyə hörmət və ehtiramının güclü olduğunu, Azərbaycan Respublikasının demokratik əsaslarının möhkəmliyini, konstitusiya və qanunlardan kənar fəaliyyətin yolverilməzliyini nümayiş etdirdi. Bu hadisələrdən keçən 31 ildə Azərbaycan müstəqil dövlət kimi daha da inkişaf etdi, əlaqələri genişləndi və mövqeləri möhkəmləndi. Ulu Öndər Heydər Əliyevin dövlət idarəçiliyindəki zəngin təcrübəsi, xalqına, Vətəninə, millətinə olan sonsuz məhəbbəti, qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitlik qorunub-saxlanıldı. Bu gün ölkəmiz Cənubi Qafqaz regionun lider dövlətinə və güc mərkəzinə çevrilib. Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən siyasəti müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır, dövlətimiz durmadan yüksəlir, inkişaf edir və yeni uğurlar qazanır. Dövlət başçısının uğurlu daxili və xarici siyasəti, müasir yanaşmalar, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrində yeni nailiyyətlərin qazanılmasına səbəb olub. Dövlət başçısının həyata keçirdiyi güclü ordu strategiyasının məntiqi nəticəsi olaraq, Azərbaycan Ordusu hərb tarixində yeni səhifə olan 44 günlük Vətən müharibəsində Azərbaycanın gücünü dünyaya göstərə bildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin gələcəyə xidmət edən strategiyası sayəsində regionun beynəlxalq statusu dəyişmiş və region ölkələrinin inkişafı üçün yeni imkanlar açılmışdır.

***Zümrüd BAYRAMOVA***

SON SƏHİFƏ
SƏS
11 mart
2026-cı il

# Novruzda rəngli yumurtaların sirri: bu ənənə haradan yaranıb?



Novruz bayramı Azərbaycan və bir çox Şərq xalqlarının ən qədim və zəngin mədəni ənənələrindən biridir. Baharın gəlişi və təbiətin yenidən oyanması ilə bağlı olan bu bayramda süfrələr bəzədilir, səməni cücərdilir, müxtəlif şirniyyatlar hazırlanır və rəngli yumurtalar süfrəyə qoyulur. Bayram günləri yaxınlaşdıqca mağazalarda və evlərdə müxtəlif rənglərə boyanmış yumurtalar görmək mümkündür.

Lakin bir çox insan üçün bu ənənə sadəcə dekorativ və ya uşaqlar üçün əyləncəli bir element kimi görünə bilər. Əslində isə yumurtaların rənglənməsi qədim mifoloji və kosmoqonik təsəvvürlərlə bağlı olan çox dərin simvolik məna daşıyır. Bu adətin kökləri min illər əvvələ gedib çıxır və təbiətin dirilməsi, həyatın yenilənməsi və məhsuldarlıq ideyası ilə sıx bağlıdır. SİA mövzu ilə bağlı araşdırma edib.



ARAŞDIRMA

## Yumurtanın simvolik mənası

Qədim mədəniyyətlərdə yumurta həyatın başlanğıcı və yaradılış rəmzi hesab olunub. Onun qabığı içində yeni həyatın formalaşması insanlarda kosmosun və dünyanın yaranması haqqında mifoloji təsəvvürlərlə əlaqələndirilirdi.

Novruz ənənələrində yumurta həyatı, diriliyi və yenilənməni simvolizə edir. Araşdırmalara görə, Novruz günlərində yumurta boyamaq adəti torpağın və təbiətin dirilməsi ilə bağlı qədim təsəvvürlərin bir hissəsidir.

Bu baxımdan yumurta yalnız qida deyil, həm də baharın və yeni həyatın rəmzi kimi qəbul edilir.

## Yumurtaların rənglənməsi nəyi ifadə edir?

Novruzda yumurtaların müxtəlif rənglərə boyanması da təsadüfi deyil. Ənənəvi olaraq ən çox qırmızı rəng istifadə olunurdu.

Qədim inanclara görə:

- qırmızı rəng həyat enerjisini və Günəşi simvolizə edir
- yeni ilin başlanğıcını və təbiətin oyanmasını göstərir
- bərəkət və bolluq gətirəcəyinə inanılır

Araşdırmalar göstərir ki, qədim azərbaycanlılar Novruz və ilaxır çərşənbələrdə yumurtanı qırmızı rəngə boyayaraq torpağın və əcdadların dirilməsi ideyasını ifadə edirdilər.

Başqa sözlə, yumurta boyamaq yalnız estetik məqsəd daşımırdı; bu, təbiətin yenilənməsi mərasimlərinin bir hissəsi idi.

## Qədim mifoloji və kosmoqonik təsəvvürlər

Bir çox qədim xalqların mifologiyasında dünya "kosmik yumurta"dan yaranmış kimi təsvir olunurdu. Bu fikir qədim türk, İran və digər Şərq xalqlarının miflərində də rast gəlinir.

Bu təsəvvürə görə:

- yumurta - kainatın başlanğıcını
- qabıq - dünyanın sərhədlərini içindəki həyat isə yaradılışı təmsil edir.

Novruz isə məhz köhnə ilin bitməsi və yeni ilin başlanması, yəni kosmik yenilənmə ideyası ilə əlaqələndirilirdi. Buna görə də yumurta bayramın əsas simvollarından birinə çevrilmişdir.

## Yumurta döyüşdürmə oyununun mənası

Novruz bayramında uşaqlar və böyüklər arasında geniş yayılan ənənələrdən biri də yumurta döyüşdürməkdir.

Bu oyun sadəcə əyləncə deyil, qədim inanclara görə simvolik məna daşıyır:

- qalib gələn yumurta yazın və həyatın qələbəsini təmsil edir
- qırılan yumurta isə köhnə ilin və qışın sonunu simvolizə edir.

Folklor tədqiqatçıları qeyd edir ki, bu mərasimlər qədim insanların təbiətin yenilənməsi haqqında təsəvvürlərini ifadə edən ritual oyunların bir hissəsi idi.

## Bu ənənənin müxtəlif xalqlarda yayılması

Yumurta boyamaq təkcə Azərbaycanda deyil, Novruz qeyd olunan digər ölkələrdə də mövcuddur.

İran, Türkiyə, Orta Asiya ölkələri və Qafqaz bölgəsində də yumurta boyamaq və yumurta oyunları bahar bayramlarının mühüm elementlərindən sayılır. Bu isə göstərir ki, adətin kökü çox qədim regional mədəniyyətlərə dayanır.

## Müasir dövrdə yumurta boyama ənənəsi

Bu gün yumurta boyamaq ənənəsi əsasən:

- bayram süfrəsini bəzəmək
- uşaqlar üçün oyunlar təşkil etmək
- ailəvi və sosial bayram ab-havası yaratmaq məqsədi daşıyır.

Lakin onun arxasında duran əsas ideya dəyişməyib: təbiətin yenilənməsi, həyatın davamlılığı və baharın gəlişi.

Nəticə...

Novruz bayramında yumurtaların rənglənməsi sadəcə dekorativ adət deyil, minilliklərə söykənən dərin mədəni və mifoloji mənaya malik bir ənənədir. Qədim insanlar yumurtanı həyatın başlanğıcı və yaradılış rəmzi kimi qəbul edir, onu boyamaqla yeni ilin gəlişini, torpağın dirilməsini və təbiətin oyanmasını simvolik şəkildə qeyd edirdilər.

Bu gün də Novruz süfrəsində yer alan rəngli yumurtalar qədim inancların və mədəni yaddaşın yaşadığını göstərən ən canlı simvollardan biri hesab olunur.

*Günel Fərzəliyeva*


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
Tiraj: 2000